

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 168 (21.829)

7 sentyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 6-da Bakı gəmiqayırma zavodunda BP şirkətinin sifarişi ilə "Şahdəniz-2" layihəsi çərçivəsində inşa edilən "Xankəndi" sualtı tikinti gəmisinin təqdimat mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısına "Xankəndi" sualtı tikinti gəmisi haqqında videoməlumat təqdim olunub.

Prezident İlham Əliyevə "Şahdəniz-2" layihəsi çərçivəsində görülən işlərlə bağlı da məlumat verilib.

Dövlətimizin başçısı "Xankəndi" sualtı tikinti gəmisinin rəmzi istismara verilməsini bildirən lenti kəsib.

Sonra Prezident İlham Əliyev gəminin işə salınmasını bildirən düyməni basıb.

Daha sonra dövlətimizin başçısı "Xankəndi" sualtı tikinti gəmisinin istismara verilməsi mərasimində çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Koreya Respublikası Milli Assambleyasının sədr müavini Park Cu-sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



## Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleks istifadəyə verilib

Sentyabrın 6-da Culfa şəhərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni kompleks istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üçün yeni binaların istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Azərbaycan müstəqillik əldə etdikdən sonra yaradılan təşkilatlardan biri də Ekologiya və Təbii Sərvətlər Nazirliyidir. Buna müvafiq olaraq Naxçıvan Muxtar Respublikasında da Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılaraq fəaliyyət istiqamətləri müəyyənləşdirildi.



Ali Məclisin Sədri demişdir: Ötən əsrin 30-cu illərindən etibarən Naxçıvan Muxtar Respublikası ərazisinin geoloji öyrənilməsinə başlanmışdır. Muxtar respublika ərazisində ilk dəfə 1967-ci ildə Naxçıvan Geoloji Kəşfiyyat Ekspedisiyası yaradılmışdır. Ekspedisiya muxtar respublika ilə bərabər, Zəngilan, Qubadlı və Füzuli rayonlarının ərazilərində də bərk faydalı qazıntı yataqlarının axtarışı və kəşfiyyatını həyata keçirmişdir. 2001-ci ildən isə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində olan Milli Geoloji Kəşfiyyat Xidmətinin tərkibində Naxçıvan Geoloji Axtarış Ekspedisiyası adı ilə fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 oktyabr 2014-cü il tarixli qərarı ilə Naxçıvan Geoloji Axtarış Ekspedisiyası Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 fevral 2015-ci il tarixli Fərmanı ilə Geoloji Axtarış Ekspedisiyasının bazasında Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olan Geoloji Axtarış və Kəşfiyyat İdarəsi yaradılmış və Əsasnaməsi təsdiq edilmişdir.





Qeyd olunmuşdur ki, yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntı yataqlarının və yeraltı su mənbələrinin axtarışı, kəşfiyyatı, öyrənilməsi və qiymətləndirilməsi, filizlərin, süxurların, suların və digər geoloji törəmələrin fiziki-mexaniki, kimyəvi və digər xüsusiyyətlərinin laborator tədqiqi, təbii və antropogen fəaliyyət nəticəsində yer səthində baş verən ekzogen geoloji proseslərin öyrənilməsi, muxtar respublikada yer təkinin, faydalı qazıntıların mühafizəsi və istifadəsi sahəsində qanunvericiliyə riayət olunmasına dövlət nəzarətinin həyata keçirilməsi, yer təkinin dərinlik quruluşunun, seysmik şərait və digər təbii hadisələrin öyrənilməsi Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin qarşısında duran əsas vəzifələrdir.

Ali Məclisin Sədri Geoloji Axtarış və Kəşfiyyat İdarəsinə tapşırmışdır ki, muxtar respublika üzrə mineral-xammal bazasının resurslarının perspektiv proqnozlarını, yeraltı su ehtiyatlarının kompleks istifadəsi sxemlərini hazırlasın, nəzərdə tutulan geoloji tapşırıqların təsdiq olunan layihə-smeta sənədlərinə müvafiq surətdə ardıcıl, səmərəli, keyfiyyətli və müəyyən olunmuş müddətdə yerinə yetirilməsini təmin etsin. İdarə həmçinin yeraltı suların rejim və balans elementlərini, çirklənməsinin, ehtiyatların tükənməsini, eksogen geoloji prosesləri, seysmik və radiasiya şəraitini öyrənməli, ətraf mühitin təbii proseslərdən mühafizəsi məqsədilə monitorinqlər keçirməlidir. Faydalı qazıntı ehtiyatlarının və yeraltı suların balans və balansdankənar ehtiyatlarını, proqnoz resurslarını hesablamalı, ekspertiza və təsdiq üçün aidiyyəti üzrə təqdim etməlidir.

Qeyd olunmuşdur ki, qanunvericiliklə müəyyən edilmiş qaydada hər bir su obyekti üçün ekoloji su buraxılışı və suların bərpa edilmədən götürülməsinin həcmi müəyyən edilməlidir. Yerüstü və yeraltı tikinti-quraşdırma işləri aparılacaq sahələrin mühəndis-geoloji və hidrogeoloji şəraitinin öyrənilməsi üzrə işlər aparılmalı, qanunvericiliklə müəyyən edilmiş qaydada muxtar respublikada geoloji-kəşfiyyat işləri həyata keçirilməlidir. İdarə fövqəladə geoloji şəraiti və geoloji fəlakət zonaları müəyyən etməli və bu sahədə müvafiq dövlət tədbirlərinin həyata keçirilməsində iştirak etməlidir. Eyni zamanda sənaye qovşaqlarının, kurort və istirahət zonalarının, seysmik mikrorayonlaşdırma və mühafizə zonalarının, ərazi və yaşayış məntəqələrinin təhlükəli geoloji və digər analoji proseslərdən mühafizə qaydalarını hazırlamalıdır. Ekoloji baxımdan yeraltı su obyektlərindən səmərəli və məqsədyönlü istifadə edilməsinə, onların çirklənmədən, tükənmədən qorunmasına, habelə yeraltı suların planlı istifadəsinə nəzarət etməli, yaradılanları qorumalı, həvalə olunmuş vəzifələrin icrasında kollektiv səyini artırmalıdır.

Ali Məclisin Sədri verilən tapşırıqların icrasında geoloqlara uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov tədbirdə çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında təbii sərvətlərdən səmərəli istifadə iqtisadi siyasətin əsasını təşkil edir. Bunun üçün muxtar respublika ərazisində mövcud olan mineral xammal ehtiyatının öyrənilməsi, tədqiqi və istifadə edilməsi sahəsində fəaliyyətin qurulması mühüm vəzifələrdəndir. Muxtar respublika ərazisində geoloji axtarış və kəşfiyyat sahəsində aparılan işlərin tarixi bu sahədəki təcrübələrin də zənginliyini göstərməkdədir. Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin fəaliyyəti üçün lazımi infrastruktur yaradılmış, yeni kompleks istifadəyə verilmişdir. Hafiz Yaqubov muxtar respublikada ətraf mühitin qorunması, eləcə də geoloji xidmətin inkişafı sahəsində qarşıya qoyulan vəzifə və tapşırıqları layiqincə yerinə yetirəcəklərini bildirmişdir.

Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin rəisi Əli Vəliyev yaradılan müasir şəraitə görə muxtar respublika geoloqları adından minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifə və tapşırıqların icrasında səylə çalışacaqlarına söz vermişdir.

Sonra Ali Məclisin Sədri yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kompleksə əsas inzibati bina, birmərtəbəli Geologiya Muzeyi, çöl tədqiqatları üçün kameral mərkəz, Geoloji Tədqiqatlar Mərkəzi, yeməkxana, avtomaşınların saxlanılması üçün açıq və örtülü dayanacaqlar, eləcə də mexaniki təmir sexi daxildir. İnzibati bina iki mərtəbədən ibarətdir.

Ardı 2-ci səhifədə

Burada 20 iş otağı, akt zalı, geoloji informasiya fondu, arxiv, treninq otağı vardır. Binadakı geoloji informasiya fondunda geoloji axtarış və kəşfiyyat işlərinin yerinə yetirilməsi haqqında məlumatlar toplusu saxlanılır. Hazırda fondda muxtar respublikanın geologiyasına aid 243 geoloji hesabat mövcuddur.

Geologiya Muzeyinin əsas fəaliyyət istiqaməti muxtar respublikanın mineral-xammal bazasını səciyyələndirən süxur, mineral və filiz nümunələrinin ümumi nümayişə təqdim edilməsi, geoloji-kəşfiyyat işlərinin nəticələrinin və elmi-geoloji nailiyyətlərin geniş miqyasda tanıdılması və təbliğindən ibarətdir. Bina eksponatların nümayişi zalı, eksponatların saxlanılması, hazırlanması və muzey işçiləri üçün xidməti otaqlardan ibarətdir. Muzeydə filiz ehtiyatları bölməsi, qeyri-filiz ehtiyatları bölməsi, muxtar respublikanın geologiya tarixi haqqında bölmə və Paleontologiya yarımbölməsi fəaliyyət göstərir. Muzey fondunda 700 eksponat vardır. Həmçinin burada muxtar respublikanın geologiya və faydalı qazıntılar xəritələri də qoyulmuşdur.



Çöl tədqiqatları üçün kameral mərkəz 4 axtarış və bir kəşfiyyat dəstəsi üçün nəzərdə tutulmuş xidməti otaqlardan ibarətdir. Burada mühəndis-texniki personalın işləməsi, çöl işləri zamanı yerinə yetirilmiş geoloji işlərin kameral araşdırılması, layihə-smeta sənədlərinin və yekun geoloji hesabatların tərtibi və planlaşdırılması üçün lazımi şərait yaradılmışdır. Geoloji Tədqiqatlar Mərkəzinin binası üyüdücü sex və 3 tədqiqat otağı olan laboratoriyadan ibarətdir. Üyüdücü sexdə 3 üyüdücü dəzgah və üyütmə prosesi üçün 2 avadanlıq, laboratoriyada isə Almaniyanın ən qabaqcıl firmalarının istehsalı olan müasir laboratoriya avadanlıqları quraşdırılmışdır. Yeni avadanlıqlar qısa müddətdə su və süxur nümunələrinin dəqiq analizlərinin aparılmasına və tərkibin müəyyənləşdirilməsinə imkan verir.

Ali Məclisin Sədri aparılan geoloji tədqiqatların nəticələrinin Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universitetinin əməkdaşları ilə birlikdə müzakirə olunması, muxtar respublikanın təbii sərvətlərinin geoloji tədqiqat və yerləşmə xəritələri haqqında məlumatların toplanması, Geologiya Muzeyinin yeni eksponatlarla və bu sahə ilə bağlı ədəbiyyatlarla zənginləşdirilməsi və "Muzey günləri" qrafikinə daxil edilməsi, geologiya üzrə fəaliyyət göstərən xarici müəssisələr və şirkətlərlə əlaqələrin qurulması və əməkdaşların ixtisasartırma kurslarına göndərilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən iclasda komitə sədri Bəxtiyar İsmayılov məruzə edib.***

Qeyd olunub ki, bu ilin avqust ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib, komitə qarşısında bir sıra mühüm vəzifələr müəyyənləşdirilib. Tapşırıqlara əsasən komitə tərəfindən standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan, istifadə qaydaları haqqında Azərbaycan dilində müvafiq təlimatı olmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalına, satışına və istismarına yol verilməməsi, bununla əlaqədar istehlakçılar və sahibkarların əvvəlcədən məlumatlandırılması həyata keçiriləcəkdir.

Bildirilib ki, müvafiq tapşırıqların yüksək səviyyədə icrası üçün qarşıdakı dövrdə bir sıra işlər görüləcək, muxtar respublikaya idxal olunan qaz cihazları komitənin məişət qaz avadanlıqlarının sınaq laboratoriyasında yoxlamadan keçiriləcək, bundan sonra belə avadanlıqların idxalına, satışına və istismarına icazə veriləcəkdir. Komitənin yeni inzibati binasında məişət qaz avadanlıqlarının sınaq laboratoriyası yaradılıb və müasir avadanlıqlarla təchiz olunub. Bu isə yoxlamaların daha dəqiq aparılmasına geniş imkan yaradıb. Muxtar respublika Dövlət Gömrük Komitəsi ilə sıx əlaqə şəraitində fəaliyyət davam etdiriləcək, idxal olunan məişət qaz avadanlıqlarının təhlükəsizlik göstəricilərinin ciddi qaydada yoxlanılması təmin olunacaqdır. Bundan başqa, kütləvi informasiya vasitələrində maarifləndirici verilişlər və məqalələrin hazırlanması nəzərdə tutulub. Komitənin Metrologiya şöbəsi tərəfindən payız-qış mövsümünə hazırlıq tədbirləri çərçivəsində qeydiyyatda olan qazanxanalarda istismar olunan bütün ölçmə vasitələrinin yoxlanılması noyabr ayının 1-dək başa çatdırılacaqdır. Qeyd olunan məsələlərlə bağlı müvafiq işçi qrupu yaradılacaq və həmin qrupa komitənin müvafiq strukturları tərəfindən lazımi köməklik göstəriləcəkdir. Cari ilin sentyabr ayından başlayaraq 2018-ci ilin aprel ayınadək müvafiq monitorinqlər və tədbirlər davam etdiriləcək, işçi qrupu tərəfindən hər ayın sonu üzrə görülən işlərə dair arayış hazırlanacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov yekun vurub.

**✍ Səbuhi HÜSEYNOV**

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən yığıncağı xidmətin rəisi Əbil Əbilov açaraq məruzə edib. Bildirilib ki, Dövlət Baytarlıq Xidməti tərəfindən mövsümlə əlaqədar mövcud yem bazasının toplanması, tədarük olunan yemin açıq havada saxlanılmaması, qapalı və polietilen vasitəsilə mühafizəsi, heyvanları yemləndirmədən əvvəl otların doğranması, ehtiyac olarsa, isladılması, təmizlənməsi sahibkarlara tövsiyə olunmaqla yerlərdə köməklik göstərilir. Bu da mal-qaranın sağlamlığının qorunmasına müsbət təsir edir.



Quşçuluq sahəsində də sahibkarlarla mütəmadi olaraq görüşlər keçirilir, onlara payız-qış mövsümü ilə əlaqədar quş damlarının vaxtlı-vaxtında təmizlənməsi, dezinfeksiya, dezinseksiya işlərinin həyata keçirilməsi, havalandırma sisteminin, temperaturunun nizamlanması, işıqlandırılması ilə bağlı bir sıra tövsiyələr verilir. Bu da gələcəkdə məhsuldarlığın yüksək olmasına gətirib çıxaracaq.

Arı ailələrinin qışlamaya hazırlanması, onların kifayət qədər ehtiyat yemlə təmin olunması, arı pətəklərinin külək tutmayan yerlərdə saxlanılması, arıçılıqda istifadə olunan alətlərin dezinfeksiya, dezinseksiya olunması, arı dərmanlarının həmin dövrlərdə parazitlərə, infeksiyalara qarşı işlədilmə qaydaları sahibkarlara tövsiyə olunur. Bu da imkan verəcək ki, arı ailələri heç bir təlafat olmadan yaza salamat çıxsın.

Yaylaq və aran yerlərdə, ümumilikdə, mal-qaranın saxlanıldığı tövlələrdə, yataq yerlərində baytar-sanitariya işinin əsas göstəricilərindən hesab olunan dezinfeksiya, dezinseksiya tədbirlərinin vaxtında həyata keçirilməsi bütün növ xəstəliklərin yayılmasının qarşısını alır. Ona görə də köç başlanmazdan əvvəl tövlələr təmir olunmalı, təmizlik işləri həyata keçirilməlidir. Bu işlərlə bağlı mütəmadi olaraq sahibkarlarla tövsiyə xarakterli söhbətlər aparılır.

Vurğulanıb ki, mövsümlə əlaqədar bütün növ ev heyvanları arasında profilaktik tədbirlərin aparılması üçün Naxçıvan Muxtar Respublikası Zoobaytar Təchizat İdarəsində dərman və biopreparatların ehtiyatı yaradılıb. Hazırda anbarda saxlanılan ehtiyatdan müvafiq qaydalar əsasında istifadə olunacaqdır. Yeddi adda arı dərmanı və bir neçə adda baytarlıq şpris və avadanlıqları ehtiyatı da yaradılıb. Bu da gələcəkdə bütün növ xəstəliklərin yayılmasının qarşısının alınmasında mühüm rol oynayacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

İclasa Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Əbil Əbilov yekun vurub.

**✍ Nail ƏSGƏROV**



Müzakirəyə çıxarılmış məsələ ilə əlaqədar məruzə edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan əsas tapşırıqlardan biri əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə və təbii qaza olan tələbatının ödənilməsini, eləcə də digər infrastrukturların ilboyu, xüsusilə payız-qış mövsümündə normal fəaliyyət göstərməsini təmin etməkdir. Hazırda rayon ərazisindəki 17 çoxmərtəbəli yaşayış binası, 94 idarə və müəssisə, o cümlədən müxtəlif yaşayış məntəqələrində 44 təhsil, 44 tibb, 88 mədəniyyət müəssisəsi istilik sistemi ilə işləyir. Geniş quruculuq tədbirləri aparılan Ələkli, Qarahəsənli və Ərəbyengicə kəndlərində inşa edilən, yaxud yenidən qurulan obyektlərdə də müasir istilik sistemi quraşdırılır. Mövsüm ərzində elektrik enerjisindən istifadə zamanı yaranan texniki itki minimuma endirilməli, qanunsuz istifadə hallarının qarşısı aradan qaldırılmalıdır. Payız-qış mövsümündə istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təmin etmək məqsədilə avadanlıqlar texniki baxışdan keçirilib. İstehlak olunmuş elektrik enerjisi haqlarının vaxtında yığılmasına nəzarət gücləndirilməlidir.

Rayon İcra Hakimiyyətinin başçısı bildirib ki, payız-qış aylarında qaz nəqlində fasilələr yaranmaması üçün avadanlıqlara mütəmadi texniki baxış davam etdirilməli, tənzimləyici qurğuların mövsümə uyğun nizamlanması, xətlərdəki nasazlığın vaxtında müəyyən edilməsi, sayğacdankənar istifadənin qarşısının alınması, təbii qaz nəqlinin texnoloji rejimə uyğun həyata keçirilməsi təmin olunmalıdır. Rayon Elektrik Şəbəkəsi, Qaz İstismar və Suvarma Sistemləri idarələri qış mövsümünü problemsiz başa vurmaq üçün işlərini əlaqəli qurmalıdırlar.

Qeyd olunub ki, payız-qış mövsümünə hazırlıq çərçivəsində rayon Kommunal Müəssisələr Kombinatı və Mənzil İstismar Sahəsi tərəfindən hazırda istismarda olan su və kanalizasiya sistemlərində cari təmir işləri aparılıb, 5 ictimai yaşayış binasının kommunikasiya xətlərində təmir-bərpa işləri görülüb, 4 yaşayış binasının sıradan çıxmış çardaq örtükləri, dəhlizlərin qapı və pəncərələri dəyişdirilib. Yeni tikilən, yaxud əsaslı təmir olunan qazanxanaların istilik mövsümünədək istifadəyə verilməsi diqqətdə saxlanılıb.

Məruzə ətrafında çıxışlar olub.

**Elman MƏMMƏDOV**

* * *

***Naxçıvan Dövlət Texniki Kollecində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar yığıncaq keçirilib.***



Tədbiri giriş sözü ilə kollecin direktoru Asəf Ruşanov açaraq bildirib ki, ötən il böyük dövlət qayğısı ilə bu təhsil müəssisəsi üçün ayrılmış bina əsaslı şəkildə yenidənqurmadan sonra tələbə və müəllimlərin istifadəsinə verilib.

Vurğulanıb ki, 26 avqust 2017-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr"lə əlaqədar keçirilən müşavirədə verilmiş tapşırıqlara uyğun olaraq kollecdə də payız-qış mövsümünə hazırlıq işləri aparılır. Bu məqsədlə elektrik sistemləri nəzərdən keçirilib. Hazırda kollecin qazanxanasının payız-qış mövsümünə yararlılıq vəziyyəti yoxlanılır.

Sonra kollecin təsərrüfat işləri üzrə direktor müavini Feyzulla Musayev və hərbi rəhbər Vüsal Abdullayev çıxış edərək payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlərdən söhbət açıblar.

Qeyd olunub ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı kollecdə həyata keçirilən tədbirlər tədrisin fasiləsiz təşkilinə şərait yaradacaq.

İclasa Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov yekun vurub.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Şagirdlərə məktəbli ləvazimatları verilib



Muxtar respublikamızda sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sağlam böyümələri, biliklərə yiyələnmələri, milli və mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişmələri, problemlərinin yerindəcə həll olunması istiqamətində həyata keçirilən tədbirlər bu qəbildən olan uşaqlara dövlət qayğısının bariz ifadəsidir.

Həmin tədbirlərin davamı olaraq 15 sentyabr – Bilik Günü ərəfəsində Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə yuxarıda adıçəkilən kateqoriyalardan olan məktəblilərə geyim forması, məktəbli çantası və dərs ləvazimatları təqdim olunub.

Bu münasibətlə sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə təhsil naziri Məmməd Qəribov açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışıb. Muxtar respublika əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova çıxış edərək şagirdləri qarşıdan gələn Bilik Günü münasibətilə təbrik edib, onlara təhsildə uğurlar arzulayıblar.

Sonda aztəminatlı, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara və sağlamlıq imkanları məhdud şagirdlərə məktəbli geyim forması, məktəbli çantası və dərs ləvazimatları verilib.

Tədbirdə iştirak edən sağlamlıq imkanları məhdud uşaqların valideynləri göstərilən diqqət və qayğıya görə ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Təhsil Nazirliyi hər iki valideynini itirmiş 44, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 280 sağlamlıq imkanları məhdud, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə aztəminatlı ailələrdən 87 uşaq olmaqla, ümumilikdə, 411 uşağı təhsil sovqatı ilə sevindirib.

Həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib.

✍ **Səbuhi HƏSƏNOV**

## Hərbi və mülki sahədə çalışan tibbi heyətin birgə iştirakı ilə konfrans keçirilib

***Naxçıvan Muxtar Respublika Xəstəxanasında "Mövsümi infeksion xəstəliklər – qripin profilaktikası və müalicəsi, odlu silah yaralanmalarında müasir yanaşma" mövzusunda konfrans keçirilib.***

Hərbi və mülki sahədə çalışan səhiyyə işçilərinin iştirak etdiyi konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq tədbirin əhəmiyyətindən danışıb.

Tədbirdə "Epidbiomed" Tibb Şirkətinin baş direktoru Namiq Əliyev "Qripin profilaktikasında vaksinlərin tətbiqi" mövzusunda məruzə edib. Məruzəçi qripin törədiciləri, dəyişkənliyi, səbəbləri haqqında danışıb, dünyada mövcud olan epidemiyalardan bəhs edib. Baş direktor şirkətin təqdim etdiyi "Vaksiqrip" preparatı haqqında konfrans iştirakçılarına məlumat verib, bu preparatların tərkibi, istehsal forması, müxtəlif yaş qruplarında tətbiqi qaydaları və effektivlik dərəcəsindən söz açıb.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkim-infeksionisti Süleyman Cabbarov konfransdakı məruzəsində muxtar respublikada infeksion xəstəliklərə qarşı aparılan mübarizə tədbirlərindən bəhs edib, bu qəbildən xəstəliklərin yoluxma mexanizminin aydınlaşdırılmasının infeksion xəstəliklərin profilaktikasının əsasını təşkil etdiyini deyib. Qeyd edilib ki, hər bir infeksion xəstəliyin öz spesifikliyi vardır. Bu, xəstəliyi törədən infeksiyanın növündən asılı olaraq dəyişir. İnfeksiyanın insan orqanizmində əmələ gətirdiyi xəstəliklərin patoloji əlamətləri yalnız infeksiyanın xarakterindən deyil, daxil olduğu orqanizmin müqavimətindən də asılı olur.



Naxçıvan Hərbi Hospitalının rəisi, tibb xidməti polkovniki Əli Allahverdiyev məruzəsində son illərdə muxtar respublikada ordu quruculuğuna göstərilən diqqət və qayğıdan danışıb, bu qayğıdan hərbi tibb ocaqlarına da pay düşdüyünü deyib. Vurğulanıb ki, bu gün muxtar respublikada yerləşən hərbi hissələrdəki tibb məntəqələrində, eləcə də hərbi hospitalda ən müasir tibb avadanlıqlarından istifadə edilir. Bütün bu görülən işlər isə, son nəticədə, hərbçilərin sağlam ruhda xidmət etmələrinə şərait yaradır. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, son illərdə hərbi hissələrdə infeksion xəstəliklərin kütləvi yayılması hallarına rast gəlinmir. Bu sahədə irəliləyişə nail olunmasında vaksinasiya tədbirlərinin də mühüm əhəmiyyəti vardır.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin baş cərrahı, tibb xidməti polkovniki Mütəllim Həsənov məruzəsində odlu silah yaralanmalarına müasir yanaşma, yeni müalicə metodları və döyüş şəraitində ilkin tibbi yardımın təşkilindən bəhs edib. Bildirilib ki, bu cür yaralanmalar daha çox müharibə dövrü ilə bağlıdır. Lakin erməni silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması zamanı, habelə snayperlər tərəfindən hərbçilərin və hətta hərbi zonada yaşayan mülki əhalinin hədəfə alınması nəticəsində də odlu silah yaralanmaları qeydiyyata alınır. Belə yaralanmalarda ilkin tibbi yardımın və cərrahi əməliyyatların qısa zamanda aparılmasının böyük əhəmiyyəti vardır. Bu gün döyüş şəraitində hospitalların dislokasiya yerini dəyişərək, öz fəaliyyətini cəbhəyə yaxın bölgələrdə davam etdirməsi üçün bütün imkanlar mövcuddur. Ancaq tələbat yarandığı şəraitdə mülki xəstəxanaların da bu prosesə qoşulması labüddür. Buna görə də hərbi və mülki sahədə çalışan əməkdaşların fikir və təcrübə mübadiləsi vacibdir. Bu baxımdan hərbi və mülki sahədə çalışan tibbi heyətin birgə iştirak etdiyi konfransın böyük əhəmiyyəti vardır.

Konfransda yekun sözü ilə çıxış edən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin rəisi, tibb general-mayoru Natiq Əliyev muxtar respublikada ordu quruculuğuna və hərbi tibb sahəsinin inkişafına, eləcə də bu konfransın təşkilinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib, bu sahədə daha böyük nailiyyətlər əldə olunacağına əminliyini ifadə edib.

✍ **Səbuhi HÜSEYNOV**

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası olub

Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri giriş sözü ilə açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

Tədbirdə bölmənin Bioresurslar İnstitutunun biologiya üzrə fəlsəfə doktoru, dosent Akif Bayramovun "Naxçıvan Muxtar Respublikasında xərçəngkimilər faunası" mövzusunda elmi məruzəsi dinlənilib. Qeyd olunub ki, Naxçıvanda xərçəngkimilər faunası haqqında məlumatlara ilk dəfə keçən əsrin əvvəllərində təsadüf edilib. Naxçıvan Muxtar Respublikasının xərçəngkimilər faunası 4 sinif, 10 dəstə, 28 fəsilə, 53 cins, 88 növ və yarımnövdən ibarətdir. Aşkar edilənlərdən 2 növ xərçəng quru onurğasız, digərləri isə su həyat tərzi keçirirlər.

Alim xərçənglərin Arazboyu düzənlikdən başlamış yüksək dağlıq qurşağınadək bütün sututarların faunasında geniş yayıldığını söyləyib. O deyib ki, Araz Su Anbarının su qatında asılı paylanmış zooplankton faunasının 38 növ ibtidai xərçəngi və təsərrüfat əhəmiyyəti baxımından xüsusi maraq doğurur. Zooplanktonda yaşayan xərçənglər su anbarında yayılan bütün balıq növlərinin sürfə və körpələrinin ilkin, "start" yemini təşkil edir.

Daha sonra bölmənin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasında aparılan işlərin son vəziyyəti barədə laboratoriya rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynov məlumat verib. Bildirib ki, laboratoriya əməkdaşlarının 4 kitabı, 52 elmi əsəri (onlardan 34-ü xaricdə) çap edilib ki, bunlardan da 9 məqalə xaricdə impakfaktorlu jurnallarda nəşr olunub. Həmçinin laboratoriya əməkdaşları 3 patent hazırlayıb, 37 məqalə isə çapa göndərilib.

Məruzə dinlənildikdən sonra Rəyasət Heyətində müzakirə olunub və gələcəkdə aparılacaq tədqiqatların elmi səmərəliliyini yüksəltmək üçün müvafiq tapşırıqlar verilib.

İclasda akademik İsmayıl Hacıyev bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin və Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasovun tarif dərəcələrinin artırılması barədə iştirakçılara məlumat verib.

Gündəliyə çıxarılan digər məsələ İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımovun tarif cədvəlində dəyişiklik edilməsi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılovanın vahid tarif cədvəli üzrə vəzifə və dərəcəsinin artırılması ilə bağlı olub.

İclasda Rəyasət Heyətinin qərarı ilə İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov Musiqi və teatr şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Əli Həşimov isə institutun elmi katibi təyin edilib.

Sonda bir sıra cari məsələlərə baxılıb.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

## "Zaviyə" adlı bina yalnız Naxçıvandadır

### Bu bina haqqında nə bilirik?

***Naxçıvan şəhərinin Heydər Əliyev prospekti ilə Təbriz küçəsinin kəsişdiyi yerdə – "Zaviyə" məhəlləsində tarixi-memarlıq abidəsi kimi tanınan Zaviyə-Mədrəsə binası əvvəllər məscid kimi fəaliyyət göstərib.***



Məscid binasının zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun XVII-XVIII əsrlərin zəngin memarlıq ənənələrinin məhsulu olduğunu göstərir. Binanın indiki interyer quruluşu böyük salondan, ona bitişik vestibüldən, ikimərtəbəli iki yardımçı otaqdan və dolama pilləkənləri olan minarədən ibarətdir. Salonun və digər tikililərin sferik günbəzləri dağıdıldığından XIX əsrin sonlarında düz xətti örtüklə əvəz edilib. Giriş qapısı qərb tərəfdəndir.

Ərəb dilində çoxmənalı söz kimi ibadətlə məşğul olmaq üçün tənha yer, təkiyə, hücrə, guşə, künc, bucaq mənasını daşıyan zaviyə həm də sufi təriqətinə mənsub məskən adlarından biridir. Övliya Çələbinin "Səyahətnamə"sində zaviyə "sufi dərvişlərin təbliğat evi" kimi göstərilib. Bir sıra fars mənbələrində isə zaviyə "müqəddəs yer" anlamında işlədilir.

Orta əsrlərdə Naxçıvanda mövcud olmuş bəzi təriqət tərəfdarları əsas məscidlərə getmir, özləri üçün ayrıca təkiyələr, zaviyələr tikərək orada yaşayır və zikrlə məşğul olurdular. Hürufi təriqətçiləri belə binaları xanəgah, bektaşi və nəqşibəndilər isə zaviyə adlandırıblar. Hürufilərin ideologiyası olan sufilik ittifaqı və qardaşlığı isə "dərviş ordenləri" adlanırdı. "Dərviş ordenləri"nin bektaşilik və nəqşibəndilik təriqətlərinin tərəfdarları həmin dövrdə Naxçıvanda daha geniş yayılmışdı. Onlar bir guşəyə çəkilib ibadətlə məşğul olmaq üçün zaviyənişin olur və tikdikləri günbəzin altındakı zikr yerlərinə "zaviyə" adı verirdilər. Ə.Salamzadə və K.Məmmədzadənin "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri" kitabının 203-cü səhifəsində oxuyuruq: "Bu tip xüsusi günbəzli tikintilər feodalizm dövrünün "zaviyə" və ya "təkiyə" adlandırılan dini müəssisələr qrupunu təmsil edirdi. Onlar dərviş təriqətinə mənsub olub, ömrünü ibadətə həsr etmiş dərvişlərin yaşayış binası olub".

Naxçıvanda belə binaların tikintisi hələ Atabəylər dövrünə də təsadüf edir. Tikintisi orta əsrlərə aid olan bu məscidin yerləşdiyi məhəllənin də tarixi həmin vaxtdan başlayır. XX əsrin 20-ci ilindən, yəni Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra "zaviyə" adı yasaq edilib, binadan müxtəlif məqsədlər üçün istifadə olunub. Lakin "Zaviyə" məhəlləsinin adı xalqın hafizəsində qorunub yaşadılaraq günümüzə qədər gəlib çatıb. Bu ad Naxçıvan Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 1990-cı il 17 may tarixli qərarı ilə rəsmi olaraq yenidən bərpa edilib.

1920-ci illərin əvvəllərindən bu binada Ernest Telman adına Qadınların Mədəniyyət Evi, 1930-cu illərin ikinci yarısından Naxçıvan Şəhər Pionerlər Evi fəaliyyət göstərib. Yeri gəlmişkən qeyd edək ki, ümummilli liderimiz Heydər Əliyev Pionerlər Evində təşkil olunmuş şahmat, musiqi və dram dərnəklərinin üzvü olub. Görkəmli dövlət xadimi 1999-cu ilin 10-15 oktyabr tarixlərində Naxçıvana səfəri zamanı bu binanın ovaxtkı fəaliyyətini yüksək dəyərləndirib. 1980-ci ildə Pionerlər Evi yeni üçmərtəbəli binaya köçürüldükdən sonra burada şəhər Müəllimlər Evi fəaliyyət göstərib.

"Hüseyn Cavidin 100 illiyinin keçirilməsi haqqında" Azərbaycan KP MK-nın 1981-ci il 21 iyul tarixli qərarında Naxçıvan teatrının ikinci səhnəsi olaraq "Cavid" Poeziya Teatrının yaradılması da nəzərdə tutulduğundan bina 1982-ci ildən yeni teatrın ixtiyarına verilib. Həmin ilin oktyabrında Naxçıvana gələn ulu öndərimiz Heydər Əliyev açılış ərəfəsində olan "Cavid" Poeziya Teatrını da ziyarət edərək qədim sənət ocağının kollektivi ilə görüşüb, yeni teatrın yaradıcı heyətini təbrik edərək onlara uğurlar diləyib.

Hüseyn Cavidin nəşinin Sibirdən Naxçıvana gətirilib doğma torpağa tapşırılan günün axşamı, 1982-ci il noyabrın 3-də görkəmli şair-dramaturq Kəmalə Ağayevanın "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşası ilə poeziya teatrının təntənəli açılışı olub. Beləliklə, bu binada 1982-1989-cu illərdə "Cavid" Poeziya Teatrı çox məhsuldar və səmərəli fəaliyyət göstərərək tamaşaçıların zövqünü oxşayıb, onların rəğbətini qazanıb.

1990-cı ilin yanvarından Naxçıvana erməni təcavüzünün başlanması, muxtar respublikada ictimai-siyasi həyatın qeyri-sabitliyi, blokada şəraiti poeziya teatrının bağlanması ilə nəticələnib. Bu binadan isə 1995-ci ilə qədər videosalon kimi istifadə olunub.

XX əsrin sonlarınadək binada muxtar respublika Qadınlar Məclisi fəaliyyət göstərib. İftixar hissilə vurğulamaq yerinə düşər ki, hazırda Azərbaycan Respublikası ərazisində "Zaviyə" adlı dini bina yalnız Naxçıvan şəhərindədir. Bina tarixi abidə kimi qorunur. 2008-ci ildə əsaslı təmir və bərpa edilən binada 2012-ci ildən Naxçıvan Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərir.

**Gülnarə SADİQOVA**
***Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru***

***Hər bir xalq özünün milli və mənəvi dəyərləri, adət-ənənələri ilə yaşayır və tanınır. Odur ki, bu sərvətlərin qorunub gələcək nəsillərə ərməğan olunması mühüm rol oynayır. Azərbaycan xalqı da tarixən qədim, eyni zamanda zəngin milli və mənəvi dəyərlərə malik olub. Bədii irsimizin daşıyıcısı olan xalq yaradıcılığı da əsrlər boyu formalaşıb və daha da inkişaf edərək bu günümüzə gəlib çatıb.***

*Xalq yaradıcılığı*

# Zərgərlik sənəti zəngin ənənəyə malikdir

Bu gün milli adət-ənənələrin qorunub saxlanılması ən vacib məsələlərdən biridir. Bu istiqamətdə muxtar respublikada da ardıcıl işlər görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı xalq yaradıcılığının öyrənilməsinə, onların geniş şəkildə təbliğinə əsaslı töhfədir. Sərəncamda adıçəkilən dekorativ-tətbiqi sənətin əsas növlərindən biri də zərgərlikdir.

Qeyd edək ki, zərgərlik sənəti zəngin ənənəyə malikdir. Qədim dövrlərdən Azərbaycan zərgərlərinin yaratdıqları gözəl və nəfis sənət nümunələri dillərdə əzbər olub. Bədii gözəlliyi ilə seçilən milli zərgərlik nümunələri səyyahların, tacirlərin, şairlərin zövqünü oxşayıb.

Aparılan araşdırmalara əsasən demək olar ki, Azərbaycanda zərgərliyin tarixi eradan əvvəl II minilliyə dayanır. Bunu müxtəlif bölgələrdən tapılmış arxeoloji qazıntılar da təsdiq edir. Tədqiqatçılar Azərbaycan zərgərlik sənətinin ilk mərhələsini Naxçıvan Muxtar Respublikasının Kültəpə yaşayış məntəqəsində və Gəncəçay vadisində aşkar olunmuş bəzək nümunələrində müşahidə etdiklərini bildirirlər.

Azərbaycan zərgərliyi sadədən mürəkkəbə doğru inkişaf yolu keçib. Eradan əvvəl XIII-XI əsrlərə aid olan tunc bəzəklər daha incə, sadə həndəsi naxışlarla bəzədilib. Bəzək mədəniyyətinin sonrakı inkişaf mərhələsini eramızdan əvvəl XI-X əsrlərə aid tunc xəncərlərdə müşahidə edirik. Eramızdan əvvəl VII-VI əsrlərin tunc bəzəkləri yerli ənənələr əsasında hazırlanıb, eramızdan əvvəl IX-VII əsrlərin zərgərlik nümunələri bu sənəti yüksək bədii mərhələyə qaldırıb. Antik və orta əsr abidələrindən tapılmış geniş çeşiddə zərgərlik məmulatları mürəkkəb kompozisiyaya malik olub. Daha sonralar isə qiymətli daşlarla bəzədilməyə başlanılıb ki, buna da "qaş" deyilir. Məhz bu səbəbdən zərgərlik sənəti təkcə qiymətli metalların istehsalını deyil, habelə qiymətli daşların, başqa sözlə, ləl-cəvahiratın işlənmə texnikasını da əhatə edir.

Əsrlər boyu insan gözəlliyinə xidmət edən, onun məişətinə rövnəq verən zər-zivərin əsas kütləsini qadın zinətləri təşkil edib. Aparılan tədqiqatlardan məlum olub ki, bu zinətlər arasında baş bəzəkləri (cığcığa) üstün yer tutub. Baş zinətlərinin Azərbaycanda müxtəlif növlərinə təsadüf edilir. Bunun "alınlıq", "başlıq", "qabaqlıq" (Qərbi Azərbaycan), "cütqabağı", "gəlintac"(Şirvan-Abşeron), "qarabattaq" (Naxçıvan), "araqçın"(Ordubad) və sair adlarla geniş yayılmış xüsusi növləri yaranıb.

Boyun bəzəkləri metal (əsasən qızıl) və qiymətli daşlardan (inci, mərcan, mirvari, kəhrəba və sair) olmaqla iki növdə hazırlanıb. Muncuq boyunbağıların hazırlanması ilə bilavasitə cəvahirsazlar məşğul olublar. Firuzə, yaqut, zümrüd, ləl, büllur, əqiq, kəhrəba qaşlı üzüklər xüsusilə cəvahirsazlığın meydana gəlməsindən sonra geniş yayılıb. Nişan (bəlgə) üzüyü sayılan bu üzüklər ailə münasibətlərinin meydana gəlməsindən sonra dəbə düşüb.

Arxeoloji materiallardan o da bəlli olur ki, orta əsr Azərbaycan zərgərləri bəzək əşyaları istehsal edərkən qiymətli metallarla – qızıl və gümüşlə yanaşı, həm də mis və tuncdan istifadə ediblər. Arxeoloji qazıntıların nəticələri zərgərlik məmulatları arasında baş, qol-bilək, barmaq, sinə, bel bəzəklərinin üstünlük təşkil etdiyini göstərir. Bəzək əşyaları məmulatın növündən, bədii məziyyətlərindən asılı olaraq istehsal texnikasına görə sadə və ya mürəkkəb quruluşda hazırlanıb. Yerli zərgərlər iş prosesində əritmə, döymə, burma, oyma, cızma, yonma, lehimləmə kimi texniki üsullardan geniş istifadə edirdilər. Məmulatın növündən asılı olaraq bəzək əşyaları nəbati və ya zoomorf motivli naxış elementləri ilə bəzədilirdi. Kütləvi məhsul istehsalına imkan verən qəlibkarlıq texnikasından da kifayət qədər geniş istifadə edilirdi.



Zərgərlik məmulatlarının hazırlanmasında istifadə edilən üsullardan biri də şəbəkə üsuludur. Bu üsulun ən çox inkişaf etdiyi bölgələrin Təbriz, Bakı, Qarabağ, Şəki olduğunu bildirən tədqiqatçılar bu sırada Naxçıvanın da adını xüsusi qeyd edirlər.

Daha bir üsul isə xatəmkarlıqdır. Xəncər, qılınc və müxtəlif bədii sənət nümunələrini bu üsulla bəzəyən Naxçıvan zərgərləri istənilən əşyanı üzdən yüngülcə deşib, sonra bu deşikləri qızıl, gümüş və başqa rəngli metal ərintisi ilə doldurublar. Bunun ardınca əşyanın üstü hamarlanıb və müvafiq rəsmin əsasında düzülmüş rəngli, qiymətli metallar gözəl bir mozaika təsiri bağışlayıb.

Naxçıvan zərgərlik sənətində minasazlıq üsulu da geniş yer tutur. Minasazlığın ən çətin və maraqlı sahələrindən birinin pərdəli mina olduğunu qeyd edən tədqiqatçılar bu cür işlərin ən çox Naxçıvanda yayıldığını və yerli zərgərlər tərəfindən inkişaf etdirildiyini bildirirlər.

Qədim diyarda zaman-zaman yaşadılan zərgərlik sənəti nümunələrinin texniki cəhətləri ilə yanaşı, bədii xüsusiyyətləri və məzmunu da diqqəti cəlb edir. Bu, onun ornamenti ilə əlaqədardır. Ornament tətbiq olunduğu sənət nümunəsini bəzəməklə bərabər, həm də onun məzmununun üzə çıxarılmasına xidmət edir. Naxçıvan zərgərlərinin hazırladıqları məmulatlar üzərində digər ornamentlərlə yanaşı, həndəsi ornamentlərin də təsvirinə rast gəlinir. Məlumdur ki, uzaq keçmişdə həndəsi naxışlar ibtidai insanlar arasında ilk yazı, yəni izahat forması olub.

Qeyd etmək lazımdır ki, həndəsi ornamentlərdən bir zamanlar geniş istifadə edilib. Azərbaycan dekorativ-tətbiqi sənətinin elə bir örnəyi yoxdur ki, orada emblem və rəmzi mahiyyətli bəzək və rəsmlərə rast gəlməyəsən. Məsələn, dekorativ-tətbiqi sənətin müxtəlif sahələri üzrə hazırlanan bəzi nümunələr üzərindəki aypara və ya ayparalı ulduz rəsmini göstərmək olar. Məlumdur ki, aypara rəsmi qədim insanların astral dini təsəvvürləri ilə əlaqədar olduğu üçün xalq sənəti nümunələrində, o cümlədən qadın bəzək əşyası olan boğazaltıda daha çox istifadə edilib.

Qədim Azərbaycan zərgərlərinin əl işləri bu günümüzə qədər gəlib çatıb. Araşdırmalar göstərir ki, o dövrdə ustalar yalnız bəzək əşyası düzəltməklə kifayətlənməyib, həm də müxtəlif çeşidli gümüş qablar hazırlayıb və bəzi məmulatları bəzəməklə də məşğul olublar. Bundan başqa, zərgərlərimiz qiymətli daşları (yaqut, dağ bülluru) işləmə, cilalama, oyma kimi mürəkkəb texniki üsullar vasitəsilə bacarıqla icra edə biliblər. Bu daşlarla bəzədilmiş bəzək məmulatları indi də diqqəti cəlb edir. Bunların içərisində başları qoç formasında düzəldilmiş bəzəkli gümüş qolbağı və eramızın I əsrinə aid olan ucları ilan başı formasında hazırlanmış qolbağı göstərmək olar. Çox maraqlıdır ki, aypara, altı-səkkizguşəli qədim qadın sırğaları sonrakı dövrdə Nizaminin "Yeddi gözəl" əsərində təsvir edilir. Zərgərlik sənəti sonrakı dövrlərdə də öz inkişafını davam etdirib, tarixin bütün mərhələlərində ictimai-iqtisadi münasibətlərin təzələnməsi ilə müəyyən dəyişikliyə uğrayıb və zənginləşib. Bu, özünü daha çox zinət əşyalarının formalarında və bəzəklərin müxtəlifliyində büruzə verir.

Bir sözlə, zərgərlik Azərbaycan xalqının ən qədim el sənətlərindəndir. Bu sənət nümunələrini qoruyub yaşatmaq hər birimizin borcudur. Unutmayaq ki, müasir dövrdə qloballaşma prosesi gedir. Yəni xalqlar və ölkələr sürətlə bir-birinə inteqrasiya edir. Belə bir şəraitdə hər bir xalqın öz milli kimliyini qoruyub saxlaması, başqa xalqların onun mədəniyyət nümunələrini mənimsəməsinin qarşısını alması əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Təcrübə göstərir ki, xalq öz milli-mənəvi dəyərlərinə sahib çıxmasa, onlar başqa xalqlar tərəfindən özününküləşdirilər, mənimsənilər. Ona görə də biz milli-mənəvi dəyərlərimizə sahib çıxmalı, yaşatmalı və təbliğ etməliyik".***

**Nuray ƏSGƏROVA**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2017-ci ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 376 | 26,7 | 26,9 | 100,7 |
| 2. | Kəngərli rayonu | 620 | 44,0 | 44,1 | 100,2 |
| 3. | Culfa rayonu | 1158 | 82,2 | 82,3 | 100,1 |
| 4. | Ordubad rayonu | 1479 | 105,0 | 105,1 | 100,1 |
| 5. | Naxçıvan şəhəri | 6265 | 469,9 | 469,9 | 100,0 |
| 6. | Şərur rayonu | 1948 | 138,3 | 138,3 | 100,0 |
| 7. | Babək rayonu | 2761 | 196,0 | 196,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 301 | 21,4 | 21,4 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28337 | 2550,3 | 2550,3 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **43245** | **3633,8** | **3634,3** | **100,0** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 43 milyon 245 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 633 min 800 manat olmuş, cəmi 3 milyon 634 min 300 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Ən güclü güləşçilərin adları məlum olub

Şərur Rayon Gənclər və İdman İdarəsi ilə Təhsil Şöbəsinin birgə təşkil etdiyi "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında sərbəst güləş üzrə yeniyetmələr arasında rayon birinciliyinə yekun vurulub. Birincilikdə 80-dən çox güləşçi 10 çəki dərəcəsində mübarizə aparıb.



Yarışın yekun nəticəsinə əsasən Əmrə Ağayev (32 kiloqram), Elçin İsmayılov (35 kiloqram), Hüseyn Əliyev (38 kiloqram), Etiram Nəzərov (42 kiloqram), Mirəhməd Eminov (46 kiloqram), Əkbər Qasımov (50 kiloqram), Sultan Quluyev (54 kiloqram), Altay İsmayılov (58 kiloqram), Fəxri Ələsgərov (63 kiloqram) və Əli Mehdiyev (69 kiloqram) öz çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək birinciliyin baş mükafatını qazanıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən diplomlarla təltif olunublar.

## İdmançımız dünya çempionatına lisenziya qazanıb

Hövsan Olimpiya-İdman Kompleksində MMA Qarışıq İdman növü üzrə uşaqlar, yeniyetmələr, gənclər və böyüklər arasında Bakı şəhər açıq kuboku turniri keçirilib.

Yarışda Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının 4 idmançısı da mübarizə aparıb. İki gün davam edən turnirdə ən uğurlu nəticəni 42 kiloqram çəki dərəcəsində (uşaqlar) mübarizə aparan Fərid Məhərrəmov əldə edib. O, noqi versiyası üzrə bütün rəqiblərini üstələyərək qalib adına layiq görülüb və bir ay sonra Bakı şəhərində keçiriləcək dünya çempionatına lisenziya qazanıb.

Böyüklər arasında noqi versiyası üzrə 66 kiloqram çəki dərəcəsində rinqə çıxan Cəfər Abbasov ikinci, elə bu versiyada 62 kiloqram çəki dərəcəsində Rəzzaq Əliyev üçüncü olublar.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**


### İtmişdir

Babək rayonunun Cəhri kəndində yaşamış Əliyeva Briliyant Hüseyn qızının adına olan JN-0272 inventar nömrəli, 10305018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Həsənov Həsən Bəhlul oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini İbrahimova Rübabə Həsən qızının adına olan 207A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 702